***Mehman Göytəpəli***

# Yuxumun qapısın açıq saxladım

Hayana baxıram ordasan, orda
Çiçəyə, çəmənə, gülə dönmüsən.
Sanki zərrələri bütün dünyaya,
Bütün yer üzünə səpələnmisən.

O eşqin alovu, o eşqin odu,
Hələ çıxmayıbdı canımdan, hələ.
Sənin təravətdə, sənin biçimdə,
Bir gözəl keçməyib yanımdan hələ.

Səsini çayların zümzüməsindən,
Ətrini yellərdən alıb qoxladım.
Bu gecə yanıma gələrsən deyə,
Yuxumun qapısın açıq saxladım.

# Çiçəklə oynayan o qız

Çiçəklə oynayan  o qıza bir bax,
Bir zaman xəyaldı, gerçəyə dönüb...
Elə bürünübdü al çiçəklərə,
Özü də gül olub, çiçəyə dönüb...

De, necə ovudum bu gülü, Allah?!,
Düşüb qapanımmı ayaqlarına?!
İlahi, bu çiçək necə bənzəyir
Küsəyən o qızın dodaqlarına...

Onu ürəyimə zərlə yazmışam,
Silinə bilməsin, qopa bilməsin.
Qoymuşam qəlbimin dərin yerində
Ki, ölüm gələndə tapa bilməsin...

Azər.ordu.2019.23 noyabr.S.8.